# "Nəqliyyatla bağlı gömrük məsələləri üzrə Qlobal Forum"un sessiyası və Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Gömrük Xidməti Rəhbərlərinin iclası keçirilib

İsveçrə Konfederasiyasının Cenevrə şəhərində BMT-nin Avropa İqtisadi Komissiyasının (UNECE) "Nəqliyyatla bağlı gömrük məsələləri üzrə Qlobal Forum"unun 171-ci sessiyası öz işinə başlayıb.




DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən verilən məlumata görə, sessiya çərçivəsində Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin Gömrük Xidməti Rəhbərlərinin növbədənkənar iclası keçirilib.

Tədbirlərdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edir.

UNECE-nin "Nəqliyyatla bağlı gömrük məsələləri üzrə Qlobal Forum"unun 171-ci sessiyasında "BYD Kitabçası tətbiq edilməklə beynəlxalq yük daşımaları haqqında" Gömrük Konvensiyasına yenidən baxılması, "Sərhədlərdə yüklərin nəzarətdən keçirilməsi şərtlərinin razılaşdırılması haqqında" Beynəlxalq Konvensiyanın tətbiqi məsələləri, qlobal forum tərəfindən idarə olunan digər konvensiyalar və hüquqi alətlər, o cümlədən BYD üzrə Beynəlxalq Məlumat Bankı və informasiya texnologiyaları sahəsində digər layihələr müzakirə edilir.

UNECE və Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının (IRU) nümayəndələrinin iştirakı ilə keçirilən TDT üzv dövlətlərin Gömrük Xidməti Rəhbərlərinin iclasında isə Bakıda imzalanmış TDT regionunda BYD Konvensiyasına uyğun olaraq eTIR prosedurunun tətbiqi üçün Fəaliyyət Planının ("Yol Xəritəsi") və Səmərqənddə imzalanmış "Türk Dövlətləri Təşkilatının Hökumətləri arasında Sadələşdirilmiş Gömrük Dəhlizinin Yaradılması haqqında Saziş"in həyata keçirilməsinə dair, həmçinin TDT regionunda eCMR-in (Beynəlxalq Yol ilə Mal Daşınması Müqaviləsi haqqında Konvensiya) tətbiqi ilə bağlı müzakirələr aparılıb. İclasda çıxış edən Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov tədbirin türk dövlətləri arasında regional inteqrasiyanın, gömrük işi sahəsində qarşılıqlı əməkdaşlığın inkişafında yeni imkanlar yaradacağını diqqətə çatdırıb, eyni zamanda üzv dövlətlər arasında gömrük və logistika istiqamətlərində də qarşılıqlı etimad və dostluq münasibətlərinə əsaslanan çoxşaxəli əməkdaşlıqdan məmnunluqla bəhs edib.

Qeyd edək ki, BMT-nin Avropa İqtisadi Komissiyasının (UNECE) "Nəqliyyatla bağlı gömrük məsələləri üzrə Qlobal Forum"unun 171-ci və sabah öz işinə başlayacaq BYD Konvensiyasının İnzibati Şurasının 87-ci sessiyaları fevralın 13-dək davam edəcək.

---

Azərbaycan.- 2026.- 11 fevral (№ 26).- S.6.